**Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. "Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydası təsdiq edilsin (əlavə olunur).
3. "Mexaniki nəqliyyat vasitələrinin və qoşquların dövlət qeydiyyat Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 5 dekabr tarixli 262 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 15 mart 1999-cu il
№ 39

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 15 mart tarixli 39 nömrəli
qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında**

**ƏSASNAMƏ**

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanına müvafiq olaraq hazırlanmışdır və Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus olan bütün mexaniki nəqliyyat vasitələri və onların qoşqularının (bundan sonra "nəqliyyat vasitələri") dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması (bundan sonra "qeydiyyat") qaydalarını müəyyən edir.

1.2. Mülkiyyət və təşkilati- hüquqi formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər (bundan sonra "nəqliyyat vasitələrinin mülkiyyətçiləri")* onlara məxsus olan:

1) mühərrikinin işçi həcmi 50 kub. santimetr və daha çox, konstruktiv maksimal sürəti saatda 50 km-dən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələrini, onların qoşqularını və yarımqoşqularını Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində;**

2) tramvayları və tolleybusları yerli icra hakimiyyəti orqanlarında; **

[1] 3) traktorları, həmçinin meşə və kənd təsərrüfatında istifadə edilən*, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən* mexaniki nəqliyyat vasitələrini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyində; **

[2] *4) texnoloji nəqliyyat vasitələrini, habelə bu bəndin 1-ci və 3-cü yarımbəndlərində göstərilən nəqliyyat vasitələri istisna olmaqla, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən digər mexaniki nəqliyyat vasitələrini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində;*** [3]

[4] 5) yarış məqsədli idman nəqliyyat vasitələrini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində Dövlət qeydiyyatından keçirməlidirlər; **

*Azərbaycan Ordusunun* ~~və digər birləşmələrin~~ mexaniki nəqliyyat vasitələri Azərbaycan Respublikasının Müdafiə Nazirliyində** ~~vahid~~ dövlət qeydiyyatına alınırlar. [5]

Digər silahlı birləşmələrin mexaniki nəqliyyat vasitələri həmin dövlət orqanları tərəfindən dövlət qeydiyyatına alınırlar.

1.3. Dövlət qeydiyyatı nəqliyyat vasitələrinin konstruksiyasının, texniki vəziyyətinin və avadanlığının qəbul olunmuş təhlükəsizlik qaydalarına uyğun olması, nəqliyyat vasitələrinin istifadə olunması və ya çıxdaş edilməsi zamanı uçot göstəricilərində dəyişiklik aparılması, nəqliyyat vasitələrinin hərbi mükəlləfiyyətinin müəyyən olunması, nəqliyyat vasitələrinin sahibləri tərəfindən rüsumların*, yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalara görə tətbiq edilmiş inzibati cərimələrin* ~~və ya vergilərin yaxud haqların~~ ödənilməsi, eləcə də nəqliyyat vasitələrinin mərkəzləşdirilmiş şəkildə və regionlar üzrə uçota alınması, *avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortasının təmin edilməsi*, həmçinin cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə aparılması məqsədi ilə həyata keçirilir.[6]

Nəqliyyat vasitəsinin qeydiyyatı sahibinin (hüquqi və ya fiziki şəxslərin) adına, kollektiv mülkiyyətdə olan nəqliyyat vasitələri isə yalnız bir şəxsin adına aparılır. Qeydiyyat üzrə daimi uçota alınan nəqliyyat vasitəsinin dövlət qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları (avtomobillərə iki ədəd, motosikl, traktor və qoşqulara bir ədəd) verilir.

**Qeyd:** Xüsusi xidmət və əməliyyat orqanlarının istifadəsi üçün nəqliyyat vasitələrinə qeydiyyat zamanı verilmiş dövlət qeydiyyat nişanlarından başqa Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi rəhbərliyinin icazəsi ilə əlavə dövlət qeydiyyat nişanları verilə bilər.

1.4. Hüquqi və fiziki şəxslər hüquqi ünvanı və ya yaşayış yeri üzrə nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlarda:

1) əldə edildiyi vaxtdan on gün ərzində;

2) fiziki şəxsin yaşayış yeri və hüquqi şəxsin olduğu yer dəyişildiyi vaxtdan on gün ərzində;

3) nəqliyyat vasitələrinin ipoteka müqaviləsi bağlandığı vaxtdan on gün ərzində; [7]

4) xarici dövlətlərdən gətirildikdə gömrük rəsmiləşdirilməsi keçdiyi vaxtdan on gün ərzində;

5) Nəqliyyat vasitəsinin mühərrik, ban və şassi nömrələri dəyişdirildiyi və ya qeydiyyat məlumatlarının dəyişdirilməsini tələb edən digər halların yarandığı vaxtdan on gün ərzində onlara məxsus olan nəqliyyat vasitəsini qeydiyyata aldırmalıdırlar.

1.5. Nəqliyyat vasitələrinin qeydiyyata alınması və təkrar qeydiyyata alınması, uçotdan çıxarılması, nəqliyyat vasitəsinin ipotekası ilə əlaqədar sənədləşdirilməsi, texniki-uçot göstəricilərinin dəyişdirilməsi və sair hallarla bağlı əməliyyatların aparılması bundan sonra "qeydiyyat hərəkətləri" adlanır. [8]

1.6. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar nəqliyyat vasitələrinin dövlət qeydiyyatı üzrə uçota alınması işi ilə bağlı aşağıdakıları həyata keçirirlər:

nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnaməsinin, dövlət qeydiyyat nişanlarının və digər xüsusi məhsul və avadanlıqların istehsal və ya sifariş edilməsini;

nəqliyyat vasitələrinin qeydiyyatını, özgəninkiləşdirilməsinin sənədləşdirilməsini, nəqliyyat vasitəsinin ipotekası haqqında müqavilənin və sonrakı ipoteka haqqında müqavilənin dövlət qeydiyyatının, habelə qanunla müəyyən edilmiş hallarda ipotekanın əlavə *dövlət* qeydiyyatının aparılmasını, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanlarının verilməsini; [9]

qeydiyyata alınmış nəqliyyat vasitələrinin regionlar üzrə və mərkəzləşdirilmiş uçotunun aparılmasını və bunun təşkili üçün lazımi məlumatların toplanıb hazırlanmasını;

nəqliyyat vasitələri üçün dövlət qeydiyyat nişanlarının seriyalar üzrə rayonlar arasında bölüşdürülməsini;

özünün struktur bölmələrinin nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi blankları, dövlət qeydiyyat nişanları, eləcə də digər xüsusi məhsul və avadanlıqla təchiz edilməsini;

bu bölmələrə buraxılmış dövlət qeydiyyat nişanları, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və digər xüsusi məhsulların sərfinə nəzarətin həyata keçirilməsini və onların vaxtaşırı təftiş edilməsini;

nəqliyyat vasitələrinin dövlət qeydiyyatının və daimi uçota alınmasının, qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanının verilməsinin "bir pəncərə" prinsipi əsasında təşkil edilməsini.[10]

Nəqliyyat vasitələri və onların ehtiyat hissələrinin satışı ilə məşğul olan ticarət təşkilatlarının, komisyon mağazaların uçotunun aparılmasını, satılmış avtomobillərin yol hərəkətinə müvəqqəti buraxılması üçün "tranzit" nişanları ~~və hesab-arayış blankları~~ ilə təchiz olunmasını və onların sərf edilməsinə müvafiq qaydada vaxtaşırı nəzarəti Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir. [11]

1.7. Uçotda dayanan və qeydiyyata alınmış nəqliyyat vasitələri və onların mülkiyyətçiləri barədə mərkəzləşdirilmiş və regionlar üzrə qeydiyyatın uçot bazasından məlumat almağa yalnız təhqiqat, istintaq, məhkəmə və qanunvericiliklə nəzərdə tutulmuş digər orqanların hüququ vardır.

1.8. Azərbaycan Respublikasının ərazisində:

1) dövlət qeydiyyatından keçməyən və yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə gömrük öhdəçiliyi olmayan;

2) dövlət qeydiyyat nişanı və ya onlardan biri yerində olmayan, eləcə də saxta və ya başqa nəqliyyat vasitələrinə verilmiş və ya dövlət standartına uyğun olmayan dövlət qeydiyyat nişanları ilə nəqliyyat vasitələrinin idarə edilməsi qəti qadağandır.

1.9. Bu Əsasnamədə nəzərdə tutulmuş dövlət rüsumu*, habelə nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində qanuni qüvvəyə minmiş*

*və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən cərimə* ~~və vergilər~~ yalnız bank, poçt, plastik kart, elektron ödəmə sistemləri və ya internet vasitəsilə ödənilə bilər.[12]

## 2. NƏQLİYYAT VASİTƏLƏRİNİN QEYDİYYATI

2.1. Vərəsəlik üzrə alınan nəqliyyat vasitələrinin qeydiyyatı istisna olmaqla, nəqliyyat vasitələri 18 yaşına, asma mühərrikli velosipedi, mopedi və motosikletləri isə 16 yaşına çatmış fiziki şəxslərin adına qeydiyyata alınır. Nəqliyyat vasitəsi yetkinlik yaşına çatmamış vərəsənin adına qeydiyyata alınarkən, qeydiyyat sənədində onun valideyninin, övladlığa götürənin və himayəçinin soyadı, adı, atasının adı göstərilir və belə nəqliyyat vasitəsinin qəyyumluq və himayəçilik orqanının icazəsi olmadan qeydiyyatdan çıxarılması qadağan olunur.

2.2. Fiziki şəxslərin nəqliyyat vasitələri onların daimi, yaxud müvəqqəti (daimi qeydiyyat olmadıqda) yaşayış yeri üzrə qeydiyyata alınır.

Mülkiyyətçisinin yaşayış yeri üzrə qeydiyyata alınmasına maneçilik törədən səbəblər meydana çıxdıqda (mülkiyyətçinin müqavilə üzrə müvəqqəti iş yerinə, oxumağa, hərbi xidmətə, yaxud başqa səbəbdən nəqliyyat vasitəsindən istifadə edilməsi mümkün olmayan yerə getməsi) ikitərəfli yazılı razılıq əsasında nəqliyyat vasitəsini, mülkiyyətçinin qohumlarının yaşayış yerində, həmçinin müqavilə vaxtı qurtardıqdan, təhsili, yaxud hərbi xidməti başa vurduqdan sonra mülkiyyətçinin qayıdacağı əvvəlki yaşayış yerində qeydiyyata almağa icazə verilir. Bu hallarda nəqliyyat vasitəsinin mülkiyyətçisi yuxarıda göstərilənlər barədə təsdiqedici sənədlər təqdim etməlidir.

2.3. Hüquqi şəxslərin nəqliyyat vasitələri onların yerləşdiyi ərazi üzrə nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlarda qeydiyyata alınır. İdarə, müəssisə və təşkilatların hüquqi şəxs olmayan filiallarının, bölmələrinin və başqa tərkib hissələrinin istifadəsində olan nəqliyyat vasitələri onların yerləşdikləri bölgələrdə qeydiyyata alına bilər. Belə halda nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində hüquqi şəxsin-mülkiyyətçinin adı, ünvanı və əlavə olaraq nəqliyyat vasitəsini istifadə edən filialın ünvanı göstərilir.

2.4. Avtomobil sənayesi zavodlarının istehsal etdiyi və Müdafiə Nazirliyinin təsdiq etdiyi texniki şərtlər əsasında istehsal olunmuş avtonəqliyyat vasitələri istisna olunmaqla, digər avtonəqliyyat vasitələri qeydiyyata alınarkən, mülkiyyətçilər qeydiyyat məntəqəsinə nəqliyyat vasitəsinin konstruksiyasının yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsinə dair Dövlət Yol Polis İdarəsi tərəfindən verilmiş şəhadətnaməni (onun kserosurətini) təqdim etməlidir. Nəqliyyat vasitəsinin hərəkət şəraitini məhdudlaşdıran şərtlər olduqda, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində və qeydiyyat kartoçkasında məhdudiyyətin məzmunu barədə müvafiq qeydlər aparılır.

2.5. "Əməliyyat xidmətlərinin nəqliyyat vasitələri, rəngli qrafik sxemləri, tanınma nişanları, xüsusi işıq və səs siqnalları" dövlət standartlarının və digər standartların, həmçinin onların əsasında hazırlanmış bölgə standartının aid edildiyi xüsusi nəqliyyat vasitələrində həmin standartlara müvafiq rəng və tanınma yazısı olmalıdır.

2.6. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən müvafiq sənədlər verildiyi, *onun barəsində qanuni qüvvəyə minmiş və icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti , yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən cərimə ödənildiyi* və nəqliyyat vasitəsinin mühərrik, ban və şassi nömrələri, habelə rəngini tutuşdurmaq məqsədilə müayinəyə təqdim edildiyi vaxtdan 30 dəqiqə, sənədlərin həqiqiliyinin şübhə doğurduğu müstəsna hallarda bir gün ərzində nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılmasını və onun daimi uçota alınmasını, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsini həyata keçirməlidirlər. Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə ərizəçiyə məlumat verilir və bunlar aradan qaldırıldıqdan sonra dövlət qeydiyyatı aparılır. ~~Qeydiyyata alınan nəqliyyat vasitəsinə dövlət texniki baxış talonu verilir.~~[13]

Nəqliyyat vasitəsinin dövlət qeydiyyatı və daimi uçota alınması, qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi, habelə nəqliyyat vasitəsinin müayinəsi *və texniki baxışı* ilə bağlı hərəkətlər iş günü ərzində fasiləsiz olaraq həyata keçirilir.

*Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması və daimi uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi zamanı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 57.1-57.4-cü və 97.4-cü maddələrində nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmayan yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında işlər üzrə sənədlərin çatdırılması təmin edilməlidir.*[14]

Nəqliyyat vasitəsinin müayinəsi *və texniki baxışı* növbələrin yaranmasını istisna edən şəraitdə xüsusi avadanlıqlarla təchiz olunmuş yerlərdə aparılır.[15]

Texniki müayinə həmin orqanların müfəttişi (inspektoru) və ya baş müfəttişi (baş inspektoru) tərəfindən həyata keçirilir. Müayinənin nəticəsi barədə ərizədə müvafiq qeyd aparılır və ya akt tərtib edilib möhürlə təsdiqlənir.

*2.6-1. Nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilməsi və daimi uçota alınması üçün mühərrik, ban və şassi nömrələrini, habelə rəngini tutuşdurmaq məqsədi ilə müayinə edildikdən sonra texniki baxışdan keçirilir. Aşağıdakı hallarda dövlət qeydiyyatının aparılması və daimi uçota alınması ilə əlaqədar nəqliyyat vasitəsi texniki baxışdan keçirilmir:*

*2.6-1.1. Azərbaycan Respublikasında ilk dəfə dövlət qeydiyyatına alınan nəqliyyat vasitəsinin istehsal olunduğu vaxtdan "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI-II hissəsində nəzərdə tutulmuş müddət keçməmişdirsə;*

*2.6-1.2. Azərbaycan Respublikası ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI hissəsində nəzərdə tutulmuş müddətdə texniki baxışdan keçirilmişdirsə.*

*Texniki baxış zamanı nəqliyyat vasitəsinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 1 saylı Əlavənin I və II hissələrində göstərilən nasazlıqlar aşkar edildikdə, ərizəçiyə məlumat verilir və bunlar aradan qaldırıldıqdan sonra nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilir və daimi uçota alınır.*[16]

2.7. Qeydiyyat hərəkətlərinin aparılması üçün nəqliyyat vasitəsinin təqdim edilməsi texniki nasazlıq və digər səbəblərdən mümkün olmadıqda, nəqliyyat vasitəsinin sahibi ərizədə həmin səbəbləri qeyd etməli və nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar tərəfindən ona göstəriləcək xidmət üçün əlavə rüsum ödəməlidir. Rüsumun ödənilməsi barədə sənəd təqdim edildikdən sonra beş gün ərzində həmin orqanlar nasaz nəqliyyat vasitəsinin olduğu yer üzrə onun mühərrik, ban və şassi nömrələri, habelə rəngini tutuşdurmaq məqsədi ilə müayinə keçirməlidirlər.[17]

**Qeyd.** Bu bənddə göstərilən müddətin son günü qeyri iş gününə düşərsə, ondan sonrakı iş günü müddətin qurtarma günü hesab olunur.

2.8. Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması və daimi uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi və digər qeydiyyat hərəkətlərinin aparılması üçün nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlara bu Əsasnamə ilə müəyyən edilmiş müddətdə müvafiq olaraq aşağıdakı sənədləri təqdim etməlidir:

1) ərizə;

2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin şəxsiyyətini təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);[18]

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada onun sahibliyini təsdiq edən müvafiq sənəd və ya məhkəmənin qərarı;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş rüsumların (nəqliyyat vasitələrinin təkrar qeydiyyatı istisna olmaqla) ~~və ya vergilərin, yaxud haqların~~ və yığımların ödənilməsi barədə sənəd;[19]

5) Xarici dövlətlərdən alınaraq Azərbaycan Respublikasının ərazisinə hüquqi və fiziki şəxslər tərəfindən gətirilmiş nəqliyyat vasitəsi üçün gömrük orqanlarının verdiyi icazə sənədi, nəqliyyat vasitəsinin əvvəl qeydə alındığı dövlətin daimi qeydiyyatından çıxarıldığına dair sənədi, onun qeydiyyat və ya tranzit nişanlarını.

2.8-1. Nəqliyyat vasitəsinin sahibi və ya ona sərəncam vermək hüququ olan digər şəxs nəqliyyat vasitəsinin dövlət qeydiyyatı və daimi uçota alınması, qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının alınması ilə bağlı dövlət qeydiyyatını həyata keçirən orqanlara internet vasitəsilə elektron formada müraciət edə bilər. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını həyata keçirən orqan müraciət etmiş şəxslərin qəbul edilməsi ardıcıllığının tənzimlənməsi üçün "Elektron növbə" idarəetmə sistemi vasitəsilə həmin şəxslərin növbəsini müəyyən edir və bu barədə (tarix və vaxt göstərilməklə) onlara eyni qaydada məlumat verir.

2.8-2. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını həyata keçirən orqanın rəsmi internet informasiya ehtiyatında yaradılmış elektron xidmət bölməsində dövlət qeydiyyatının həyata keçirilməsi üçün tələb olunan sənədlərin dəqiq siyahısının və müvafiq sənədlərin (ərizə və digər) elektron formasının yerləşdirilməsi, habelə sənədlərin elektron formada qəbul edilməsi təmin edilir. Müraciət edən şəxs müəyyən edilmiş qaydada doldurulmuş ərizəni və bu Əsasnamənin 2.8-ci bəndində göstərilən digər sənədlərin skan edilmiş surətlərini elektron formada dövlət qeydiyyatını həyata keçirən orqana təqdim edə bilər. Sənədlərin skan edilmiş surətlərinin həqiqiliyi dövlət qeydiyyatını həyata keçirən orqanın vəzifəli şəxsində şübhə yaratdıqda, müvafiq sənədlər barədə məlumat əldə etmək üçün dövlət orqanları tərəfindən aparılan elektron informasiya ehtiyatlarından istifadə edilir, bu mümkün olmadığı halda müraciət etmiş şəxslərdən həmin sənədlərin əsli tələb edilir.[20]

2.8-3. Bu Əsasnamənin 1.2-ci bəndinin 1-ci yarımbəndində nəzərdə tutulmuş nəqliyyat vasitəsini dövlət qeydiyyatından (həmçinin təkrar dövlət qeydiyyatından) keçirərkən fiziki şəxslər qeydiyyatda olduğu və yaşadığı ünvanı, mobil telefon nömrəsini və olduğu halda elektron ünvanını və sürücülük vəsiqəsinin nömrəsini, hüquqi şəxslər *(dövlət qurumları)* isə nəqliyyat vasitəsinin idarə edilməsini həvalə etdiyi şəxsin *(nəqliyyat vasitəsinin sürücüsünün)* müvafiq məlumatlarını dövlət qeydiyyatını həyata keçirən orqana verməli və həmin məlumatlar dəyişdikdə onları üç gün ərzində yeniləməlidirlər. Həmin məlumatlar verilmədiyi halda nəqliyyat vasitəsi dövlət qeydiyyatına alına bilməz. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi məlumatların telefon, poçt və internet vasitəsilə elektron qaydada verilməsi və yenilənməsi üçün müvafiq imkanların olmasını təmin etməlidir.[21]

2.9. Nəqliyyat vasitələrinə sahiblik, nömrəli aqreqatların alınması və əldə edilməsinin qanuniliyi aşağıdakı sənədlərlə təsdiq edilir:

istehsalçı zavodun, yaxud nəqliyyat vasitəsinə xüsusi avadanlıq quraşdırmış zavodun təhvil-təslim aktı və nəqliyyat vasitəsinin *alqı-satqı müqaviləsi*. Təhvil-təslim aktı itirildikdə aşağıda sadalanan sənədlərdən biri təqdim edilə bilər; [22]

nəqliyyat vasitəsinin həmin müəssisəyə daşınması barədə dəmir yolunun verdiyi qaimə, istehsalçı zavod tərəfindən verilmiş (nəqliyyat vasitəsinin şassisinin, banının nömrələri yazılmış) arayış, pasport, istehsalçı zavodun sertifikatı;

*komisyon və ticarət təşkilatları ilə bağlanılmış alqı-satqı müqaviləsi;*[23]

vətəndaşların mülkiyyətinə satılması istisna olmaqla, Müdafiə Nazirliyinin və digər silahlı birləşmələrin müvafiq qurumlarının verdiyi hesab-naryad, hərbi hissənin yekun aktı və texniki vəziyyət haqqında akt; [24]

əl ilə idarə edilən avtomobillərin, yaxud motoarabacıqların verilməsi barədə sosial təminat orqanlarının arayışı;

qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq edilmiş bağışlama, pay və ya ləğv etmə müqaviləsi, yaxud nəqliyyat vasitəsinə mülkiyyət və

vərəsəlik hüququ verilməsi barədə şəhadətnamələr;

nəqliyyat vasitəsinin mülkiyyətçisi və alıcı arasında yazılı şəkildə tərtib edilmiş və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisinin Qeydiyyat-imtahan məntəqələrində təsdiq olunmuş alqı-satqı (əsasnaməyə 1 nömrəli əlavə), yaxud dəyişmə (əsasnaməyə 2 nömrəli əlavə) müqaviləsi. Bağlanmış müqavilənin doğruluğunun təkzibedilməz şərti qeydiyyat məntəqəsində satıcı və alıcının (onların vəkil etdikləri şəxslərin) iştirakıdır. Hüquqi şəxslərin nəqliyyat vasitələri satılıb-alındıqda əlavə olaraq təhvil-təslim aktı və nəqliyyat vasitəsinin dəyərinin ödənilməsi haqqında sənəd və ya onun surəti tələb edilir;

müvafiq qanunvericiliklə nəzərdə tutulmuş digər sənədlər.

2.10. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisində uçota alınmış və nəqliyyat vasitələrinin alqı-satqısı üzrə ixtisaslaşmış hüquqi şəxs statuslu müəssisə, təşkilat və firmalar tərəfindən respublikaya satış üçün gətirilmiş təzə nəqliyyat vasitələri, onları almış hüquqi və fiziki şəxslərin adına, həmin nəqliyyat vasitələrinin respublikaya gətirilməsinə dair gömrük sənədləri, *alqı-satqı müqaviləsi*, tranzit nişanları və bu əsasnamənin 2.8.-ci bəndində nəzərdə tutulmuş digər müvafiq sənədlər əsasında qeydiyyata alınır. [25]

2.11. Qeydiyyata alınan nəqliyyat vasitələrinin konstruksiyası hərəkətin təhlükəsizliyinə və ətraf mühitin qorunmasına aid qüvvədə olan standartların, qaydaların və normativlərin tələblərinə uyğun olmalıdır.

Sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və dövlət qeydiyyatından keçirilməsi qadağandır.

2.12. Bu əsasnamənin 2.11-ci bəndində uyğun sərbəst quraşdırılmış və hazırlanmış nəqliyyat vasitələri mülkiyyətçilərinin adına aqreqatların, dəstlərin (qovşaqların), hissələrin və materialların alınmasının qanuniliyinə təsdiq edən sənədlər əsasında "Avtomobilçi" cəmiyyətinin texniki nəzarət komissiyasının rəyini və DYP İdarəsi ilə razılaşdırılmış "Fərdi qaydada hazırlanmış nəqliyyat vasitələrinə texniki tələblər"ə uyğun olarsa bu əsasnamənin 2.8.-ci bəndində göstərilən qaydada həmin nəqliyyat vasitələri qeydiyyata alınır. İstehsalçı zavod tərəfindən buraxılmış müəyyən tipli nəqliyyat vasitələrinin ehtiyat hissələrindən, yaxud çıxdaş edilərkən yenidən bərpa olunmuş hissələrdən nəqliyyat vasitələrinin yığılmasına icazə verilmir.

2.13. İdman saraylarında, stdionlarda idman tədbirdləri vaxtı əşya lotoreyası keçirilərkən və başqa hallarda vətəndaşların udduqları nəqliyyat vasitələri *lotereya təşkilatçısının verdiyi arayış* əsasında bu əsasnamənin 2.8.-ci bəndində göstərilən qaydada qeydiyyata alınır. *Arayışda nəqliyyat vasitəsini udmuş şəxs haqqında məlumatlar yazılır, lotereya təşkilatçısı tərəfindən imza edilir və möhürlə təsdiqlənir.* [26]

2.14. Müvafiq dövlət orqanlarının komisyon ticarət mağazaları vasitəsi ilə satdığı (müsadirə edilmiş, yaxud mülkiyyətçisi olmayan) nəqliyyat vasitələri məhkəmənin qərarı (qərardadı), yaxud digər səlahiyyəti dövlət orqanlarının qərarları və *komisyon mağaza ilə bağlanılmış alqı-satqı müqaviləsi* əsasında bu əsasnamənin 2.8.-ci bəndində göstərilən qaydada qeydiyyata alınır. Maliyyə, yaxud digər dövlət orqanlarından komisyon mağazaya qəbul edilmiş nəqliyyat vasitəsinin qeydiyyat sənədləri olmadıqda *alıcı ilə bağlanılan alqı-satqı müqaviləsində* "nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi olmadan qəbul olunub və satılıb" yazılmalı və bu qeyd mağaza müdirinin imzası və möhürlə təsdiq edilməlidir. [27]

2.15. İstehsalçı müəssisənin və avtotəmir zavodlarının texniki şərtlərinə müvafiq olaraq nəzarət sınağı keçən nəqliyyat vasitələrinə bir ildən çox olmayan müddətə üzərində "Sınaq" işarəsi yazılmış qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları verilir.

2.16. Sınaq keçən təcrübə nümunəli nəqliyyat vasitələrinin qeydiyyatı zamanı "Sınaq" işarəsi qeyd olunmuş qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları verilir. Qeydiyyata almaq üçün əsas kimi nəqliyyat vasitəsinin texniki tapşırıqda nəzərdə tutulmuş təhlükəsizlik tələblərinə uyğun olması və sınağa buraxılması barədə istehsalçı müəssisənin ekspert rəyi qəbul edilir.

2.17. Əvvəllər qeydə alındığı dövlətin daimi uçotundan çıxarılmadan Azərbaycan Respublikasına gətirilmiş nəqliyyat vasitəsi gömrük orqanlarının verdiyi icazə sənədi əsasında sahibinin adına müvəqqəti qeydiyyata alınaraq, qeydiyyat şəhadətnaməsi və nişanları ilə təmin olunur. Nəqliyyat vasitəsinin əvvəlki uçot yerinə nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqan tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin "İnterpol" Milli Mərkəzi Bürosu vasitəsi ilə edilən müraciətə müvafiq təsdiqləyici cavab alındıqdan sonra daimi şəhadətnamə verilir. Nəqliyyat vasitəsinin əvvəlki uçot yerindən silinməsi Azərbaycan Respublikasında yerləşən xarici səfirlik və konsul nümayəndəlikləri tərəfindən həyata keçirildikdə qeydiyyat orqanına müvafiq konsul şəhadətnaməsi təqdim edilir.

**Qeyd:** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu və gömrük işi haqqında qanunvericilik aktlarının qüvvəyə minməsindən əvvəl qaçqın və məcburi köçkün düşmüş vətəndaşlar və digər şəxslər tərəfindən Azərbaycan Respublikasına gətirilmiş nəqliyyat vasitələri, onların sahibliyini təsdiq edən sənədlər əsasında qeydiyyata alınır və bu barədə nəqliyyat vasitəsinin daimi uçot yerinə müvafiq məlumat göndərilir.

*2.18. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, habelə xarici hüquqi şəxslərin nümayəndəlik və filiallarının nəqliyyat vasitələri ümumi əsaslarla qeydiyyata alınır.* [28]

### *3. Diplomatik nümayəndəlik və konsulluqlarına, diplomatik nümayəndəlik statusuna (immunitetinə) malik beynəlxalq təşkilatlara, habelə onların diplomatik personalı və bu personalın ailə üzvlərinə məxsus nəqliyyat vasitələrinin qeydiyyata alınmasının xüsusiyyətləri* [29]

*3.1. Xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqları, diplomatik nümayəndəlik statusuna (immunitetinə) malik beynəlxalq təşkilatlar, habelə onların diplomatik personalı və bu personalın ailə üzvləri onlara məxsus xidməti və şəxsi nəqliyyat vasitələrinin qeydiyyata alınması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə qeydiyyat orqanına müraciət edirlər.*

*3.2. Xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, diplomatik nümayəndəlik statusuna (immunitetinə) malik beynəlxalq təşkilatların, habelə onların diplomatik personalının və bu personalın ailə üzvlərinin xidməti və şəxsi nəqliyyat vasitələrinə qeydiyyat şəhadətnaməsi və "D" seriyası üzrə dövlət qeydiyyat nişanı verilir.*

*3.3. Diplomatik nümayəndəlik və konsulluqların, diplomatik nümayəndəlik statusuna (immunitetinə) malik beynəlxalq təşkilatların inzibati-texniki və xidməti personalına və bu personalın ailə üzvlərinə "T" seriyası üzrə dövlət qeydiyyat nişanı verilir.*

*3.4. Fəxri konsulluqların nəqliyyat vasitələrinə "FK" seriyası üzrə dövlət qeydiyyat nişanı verilir.*

### 4. NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏKRAR QEYDİYYATA ALINMASI

4.1. Aşağıdakı hallarda nəqliyyat vasitələri təkrar qeydiyyata alınır:

1) fiziki şəxsin yaşayış yeri və ya hüquqi şəxsin olduğu yer dəyişildikdə;

2) nəqliyyat vasitəsinin sahibi dəyişildikdə;

3) sahibinin soyadı, adı, atasının adı dəyişildikdə;

4) avadanlıqla təchiz edilib yenidən yığılmasına və aqreqatların dəyişdirilməsinə görə nəqliyyat vasitəsinin tipi və yaxud modeli dəyişdirildikdə.

4.2. Fiziki şəxsin yaşayış yeri və ya hüquqi şəxsin olduğu yer dəyişdiyi hallarda nəqliyyat vasitələrinin təkrar qeydiyyatı sahibinin ərizəsi əsasında bu Əsasnamənin 2.8.-ci bəndində göstərilən qaydada aparılır.

4.2-1. Bu Əsasnamənin 1.2-ci bəndinin 1-ci yarımbəndində nəzərdə tutulmuş nəqliyyat vasitəsini başqa regionda təkrar dövlət qeydiyyatından keçirmək üçün müraciət edildikdə, nəqliyyat vasitəsinin yeni regionda qeydiyyata alınması əvvəlki region üzrə dövlət qeydiyyatını ləğv edir. [30]

4.3. Nəqliyyat vasitəsinin sahibi dəyişdikdə təkrar qeydiyyat mülkiyyətçinin ərizəsi və bu əsasnamənin 2.9.-cu bəndində sadalanan müvafiq sənədlərdən birinin əsasında 2.8. bəndinə müvafiq qaydada aparılır.

Nəqliyyat vasitəsinin mülkiyyətçisi öldükdə, əgər onun adından verilmiş bağışlama müqaviləsi notarius tərəfindən təsdiq edilmişdirsə, nəqliyyat vasitəsinin yeni mülkiyyətçisinin adına qeydiyyata alınması bağışlama müqaviləsi, əvvəlki mülkiyyətçinin ölümü haqqında şəhadətnamə, yaxud şəhadətnamənin notariat qaydada təsdiq edilmiş surəti təqdim edilməklə həll olunur.

4.3-1. Nəqliyyat vasitəsinin *icarə və ya digər əşya hüquqlarına dair müqaviləni*, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnaməni təsdiq edərkən, notarius müqavilənin və ya etibarnamənin təsdiq edilməsi barədə, habelə bu Əsasnamənin 2.8-3-cü bəndində nəzərdə tutulmuş məlumatları dərhal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi texniki vasitələrdən istifadə etməklə, həmin məlumatı *1 (bir)* gün müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərir. Daxil olmuş məlumat əsasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi 3 (üç) gün müddətində nəqliyyat vasitəsinin təkrar dövlət qeydiyyatını həyata keçirir və müvafiq məlumatı daşınar əmlakın rəsmi reyestrinə daxil edir. [31]

Nəqliyyat vasitəsinin *icarə və ya digər əşya hüquqlarına dair müqavilə* notarius tərəfindən təsdiq edilmədikdə, nəqliyyat vasitəsinin təkrar dövlət qeydiyyatı bu Əsasnamədə nəzərdə tutulmuş ümumi qaydada həyata keçirilir. [32]

4.4. Mülkiyyətçinin soyadı, adı, atasının adı dəyişdikdə nəqliyyat vasitəsinin təkrar qeydə alınması nigah şəhadətnaməsi (onun surəti), yaxud Ədliyyə Nazirliyinin ~~*rayon (şəhər)*~~ qeydiyyat şöbələri və ya *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin* xaricdəki konsulluq idarələri tərəfindən verilmiş digər sənədlər əsasında və bu əsasnamənin 2.8.-ci bəndində göstərilən qaydada yerinə yetirilir. [33]

4.5. Avadanlıqla təchiz edilmiş və yenidən yığılmış, yaxud aqreqatları dəyişdirilmiş nəqliyyat vasitələrinin təkrar qeydiyyata alınması aşağıdakı əsaslarla aparılır:

avadanlıqla təchiz edilməsi və yenidən yığılması haqqında nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan müvafiq orqanın verdiyi icazə;

avtotəmir zavodunda (müəssisədə) avadanlıqla təchiz edilməsi və yenidən yığılması barədə müvafiq qeyd aparılmış texniki pasport, qeydiyyat şəhadətnaməsi (yenidən quraşdırmanın tarixi, qoyulmuş banın, şassinin, mühərrikin nömrələri göstərilir);

nəqliyyat vasitəsinin avadanlıqla təchiz edilib yenidən yığılması və qəbulu haqqında təhvil-təslim aktı;

avadanlıqla təchiz edilməsi və yenidən yığılmasının yerinə yetirilməsini təsdiq edən sənəd və görülmüş işin ödənilmə qaiməsi;

həmçinin 2.8. bəndində göstərilmiş digər müvafiq sənədlər.

**Qeyd.** Əsasnamənin 2.9-cu bəndində göstərilənlərdən başqa aqreqatların alınmasının qanuniliyini təsdiq edən sənədlər aşağıdakılardır: pərakəndə və komisyon ticarəti mağazalarının, yaxud texniki xidmət stansiyalarının qovşaqların və hissələrin satılmasına dair verdikləri əmtəə qəbzləri (yarlıqları); xəzinəyə mədaxil orderinə əlavə verilmiş qəbz və ehtiyat hissələrinin satılmasına (buraxılmasına) dair müəssisələrin verdiyi qaimə.

4.6. Avadanlıqla təchiz edilib yenidən yığılması və aqreqatların dəyişdirilməsinin xüsusiyyətləri:

1) Nəqliyyat vasitələrinin markasının dəyişdirilməsi ilə nəticələnən avadanlıqla təchiz edilməsi və yenidən yığılmasına icazə verilmir.

2) Bir markadan olan nəqliyyat vasitələrinin başqa modelə avadanlıqla təchiz edilib yenidən yığılmasını texniki xidmət stansiyalarında, avtotəmir zavodlarında, avtonəqliyyat müəssisələrində və nəqliyyat vasitələrinin təmiri ilə məşğul olan digər müəssisələrdə həyata keçirilə bilər.

Minik avtomobillərinin qabaq ötürücüyə və əksinə dəyişdirilməsinə, eləcə də digər markalı minik avtomobillərinin banının həmin növə analoji konstruksiyalı banla əvəz edilməsinə, istehsalçı zavodun texniki şərtləri daxilində yalnız avtomobillərə texniki xidmət stansiyalarında icazə verilir.

3) Eyni modeldən olan nəqliyyat vasitələrinin banını və aqreqatlarını dəyişməyə həm bu bəndin 2-ci hissəsində göstərilmiş müəssisələrə, həm də nəqliyyat vasitəsinin mülkiyyətçisinin özünə icazə verilir.

4) Eyni markadan olan nəqliyyat vasitələrinin mühərrikini və çərçivəsini texniki şərtlər daxilində sərbəst qoymağa icazə verilir. Başqa hallarda dəyişdirilmə istehsalçı zavodun məsləhəti və ya Yol Hərəkətinin Təhlükəsizliyi üzrə Elmi Təşkilatıq rəyi əsasında həyata keçirilə bilər.

Müxtəlif markadan olan avtomobillərin mühərrikləri qarşılıqlı əvəz edilmir. İstisna olaraq, həmin markalı mühərrikləri digər markalı avtomobillərə qoymaq olar. Bu halda onların mühərrikləri aşağıdakı tələblərə uyğun gəlməlidir; onların gücü və dirsəkli valın fırlanma tezliyi, çəkisi və gövdə ölçüləri firma mühərriklərinin həmin parametrlərinə yaxın olmalı və onların avtomobildə möhkəm bərkidilməsini, transmissiyanın və kommunikasiyaların möhkəm birləşməsini təmin etməlidir, həmçinin sükan idarəedicisinin və tormoz sisteminin işi pozulmamalıdır.

5) Avadanlıqla təchiz edilmə və yenidən yığılma, yaxud təmir vaxtı nəqliyyat vasitələrinin azad olmuş aqreqatları (banı, mühərriki, çərçivəsi, mühərrikin bloku) mülkiyyətçilərinin sərəncamında qalır və onlardan istədikləri kimi istifadə edə bilərlər. Nəqliyyat vasitəsinin sahibi həmin aqreqatları, nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanların müvafiq arayışı əsasında komisyon ticarət mağazası vasitəsi ilə başqa şəxsə və ya texniki xidmət stansiyasına sata, notarial qaydada bağışlaya bilər.

6) *əlilliyi olan* vətəndaşlara məxsus nəqliyyat vasitələrinin, əgər onların sahiblərinin belə nəqliyyat vasitələrini idarə etməsini qadağan edən tibbi göstəriciləri yoxdursa və qoyulmuş idarəetmə mexanizminin etibarlılığı yoxlanıbsa, adi idarəetmədən əl ilə idarəetməyə keçməyə icazə verilir. Əl ilə idarəetmə dəstinin quraşdırılması avtomobillərə texniki xidmət stansiyalarında yerinə yetirilməlidir.[34]

4.7. Dəyişikliklər edilməsi və rəsmiləşdirilmə qaydası:

1) Nəqliyyat vasitəsi avadanlıqla təchiz edilib yenidən yığıldıqda yeni model, şassi, çərçivə, ban və mühərrikin nömrəsi göstərilməklə onun mülkiyyətçisinə yeni qeydiyyat şəhadətnaməsi verilir. "Qeydiyyat üçün əsas" bölməsində əvvəlki modeldən (köhnənin adı yazılır) avadanlıqla təchiz edilib yenidən yığılması, həmçinin əvvəlki qeydiyyat sənədinin nömrəsi və seriyası göstərilir. Qeydiyyat şəhadətnaməsinin "Buraxılış ili" bölməsində nəqliyyat vasitəsinin avadanlıqla təchiz edilib yenidən yığılması ili yazılır.

2) Nəqliyyat vasitəsi modeli, yaxud modifikasiyası dəyişmədən banı, mühərriki və çərçivəsi dəyişdirilərkən, həmçinin yük nəqliyyat vasitəsinin banının növü dəyişdirilərkən həmin hissələrin alınmasının qanuniliyini təsdiq edən sənədlər əsasında onların qeydiyyat əlamətləri yeni qeydiyyat şəhadətnaməsi verilməklə uçot göstəricilərində əks etdirilir, dəyişmənin tarixi, zavod markalanması və yaxud sənədlərlə təsdiq olunarsa, aqreqatın buraxılış ili göstərilir.

3) Maye qazla işləmək üçün dəyişiklik edilmiş nəqliyyat vasitələri mülkiyyətçinin, nəqliyyat vasitəsinin texniki şərtlərə uyğun olması barədə təqdim etdiyi akt və bu Əsasnamədə nəzərdə tutulmuş digər sənədlər əsasında təkrar qeydiyyata alınır.

4) Mühərrik yanacağı kimi sıxılmış təbii qazdan istifadə etmək üçün avtotəmir zavodlarında, istehsal kombinatlarında, avtomobillərə texniki xidmət stansiyalarında, nəqliyyat vasitələrinin mənsub olduğu nazirliklərin, baş idarələrin təsdiq etdikləri siyahıda göstərilən həmin işləri görmək üçün müvafiq texnoloji avadanlığı və istehsal bazası olan iri avtotəsərrüfatlarda qazbalonlu sistemə avadanlıqlaşdırılmış və "Avtonəqliyyat" Dövlət Konserninin sınaq stansiyalarında (məntəqələrində) yanacaq təchizetmə sistemi sıxılmış hava ilə sınaqdan çıxarılmış yük avtomobilləri təkrar qeydiyyata alına bilər.

Avadanlıqla təchiz edilib yenidən yığılmış və yanacaq sistemi sınaqdan çıxmış avtomobilin benzin modelindən sıxılmış təbii qazla işləyən qazbalon modelinə dəyişdirilmiş avtomobillərin yanacaq sistemləri dəyişdirildikdən və sınaqdan çıxarıldıqdan sonra buraxılması barədə texniki şərtlərinə uyğun gəlməsini təsdiq edən sənəd təhvil-təslim aktıdır və həmin akt sıxılmış qazla işləmək üçün avadanlıqla təchiz edilib yenidən yığılmış avtomobillərin təkrar qeydiyyata alınması üçün əsasdır. Yenidən quraşdırılmış avtomobillərə yeni indekslər verilir.

5) Mülkiyyətçisi dəyişən və nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanların xidmət ərazisindən çıxarılıb kənara aparılan nəqliyyat vasitələri təkrar qeydiyyata yeni uçot sahəsində alınır.

6) Əgər bağışlama müqaviləsində, yaxud vərəsəlik hüququ şəhadətnaməsində bir neçə şəxs göstərilmişdirsə, bağışlanmış, yaxud vərəsəliyə görə alınmış nəqliyyat vasitəsi mülkiyyətçilərin hamısının yazılı razılığı ilə onlardan birinin adına qeydə alınır.

Ər və arvad arasında nəqliyyat vasitələrinin birinin adından çıxarılıb digərinin adına keçirilməsinə, onların birgə ərizələri və ümumi mülk qisminə mülkiyyət hüquqi verən notariat kontorunun şəhadətnaməsi əsasında icazə verilir.

## 5. NƏQLİYYAT VASİTƏLƏRİNİN UÇOTDAN ÇIXARILMASI

5.1. Bu əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulmuş orqanlar tərəfindən nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan aşağıdakı hallarda çıxarılır:[35]

1) nəqliyyat vasitəsi sahibinin yaşayış yeri dəyişdikdə və onun yeni yaşayış yeri nəqliyyat vasitəsini qeydiyyata almış müvafiq orqanın fəaliyyət göstərdiyi ərazinin hüdudlarından kənarda olduqda, habelə qeydiyyat yerinin dəyişməsi ilə bağlı olan digər hallarda:

2) nəqliyyat vasitəsinə mülkiyyət hüququ xitam edildikdə və ya nəqliyyat vasitəsi başqasınqa verildikdə;

3) nəqliyyat vasitələri çıxdaş edildikdə.

*5.1-1. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Bu məqsədlə nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulmuş orqanlara müraciət edilir. Müraciət qəbul edildikdən sonra 3 (üç) iş günü müddətində həmin orqan tərəfindən araşdırma aparılaraq nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması və ya aşağıdakı hallardan hər hansı biri mövcud olduqda səbəbləri göstərilməklə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasından imtina barədə qərar qəbul edilir və müraciət edən şəxsə bu barədə yazılı məlumat verilir:*

*1) nəqliyyat vasitəsinin inzibati tənbeh etmə qismində müsadirə edilməsi və ya cinayət-hüquqi tədbir qismində xüsusi müsadirə edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;*

*2) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında iş üzrə səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;*

*3) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər üzrə cəza və ya digər cinayət-hüquqi tədbirlər qismində cərimənin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;*

*4) nəqliyyat vasitəsi üzərində həbs və ya yüklülük olduqda;*

*5) dövlət müəssisə, idarə və təşkilatlarına, habelə nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərə məxsus olan nəqliyyat vasitələrinin silinməsinə dair normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda və qaydada rəy verilmədikdə.*

*5.1-2. Nəqliyyat vasitələri utilizasiyaya "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq dövlət qeydiyyatını həyata keçirən orqan tərəfindən verildikdə, bu Əsasnamənin 5.1-1-ci bəndinin 1-ci, 4-cü və 5-ci yarımbəndlərinin tələblərinə əməl olunmaqla, həmin dövlət qeydiyyat orqanının qərarı ilə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılır. Bu zaman bu Əsasnamənin 5.1-1-ci bəndinin 2-ci və 3-cü yarımbəndlərində nəzərdə tutulan ödənilməmiş cərimələrin olması nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasına mane olmur.*[36]

5.2. ~~Nəqliyyat vasitəsinin uçotdan çıxarılması Əsasnamənin 2.8-ci bəndində nəzərdə tutulmuş qaydada mülkiyyətçinin ərizəsi əsasında həyata keçirilir.~~ Dövlət qeydiyyat nişanlarının təhvil verilməsi, uçotdan çıxmanın səbəbi və "tranzit" nişanlarının verilməsi (5.1-ci bəndin 3-cü hissəsi istisna olmaqla) barədə nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində müvafiq qeydlər edilir. [37]

Nəqliyyat vasitələri çıxdaş edilməklə əlaqədar uçotdan çıxarıldıqda qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları qeydiyyat məntəqəsinə təhvil verilir. Mülkiyyətçilərin istəyindən asılı olaraq, onlara 4.6-cı bəndin 5-ci hissəsində nəzərdə tutulmuş formada arayış verilə bilər.

**Qeyd.** Hüquqi şəxslərin çıxdaş edilmiş nəqliyyat vasitələri, həmin təşkilatların təsdiq etdikləri akt əsasında uçotdan çıxarılır.

5.3. Nəqliyyat vasitələri məhkəmələrin, yaxud mövcud qanunvericilik aktlarına müvafiq olaraq digər səlahiyyətli dövlət orqanlarının vəzifəli şəxslərinin cinayət, yaxud başqa qanun pozuntusu törədilməsinə görə qəbul etdiyi qərar əsasında uçotdan çıxarıla bilər.

Nəqliyyat vasitələrinin uçotdan çıxarılmasına, nəqliyyat vasitəsinə mülkiyyət hüququnun dəyişdirilməsinə müvəqqəti məhdudiyyətlər göstərilən orqanların, vəzifəli şəxslərinin qərarı ilə qoyula bilər.

5.4. Nəqliyyat vasitələrinin avtotexxidmət müəssisəsinin qəbul məntəqəsinə verilməsi üçün uçotdan çıxarılması mövcud qaydada yerinə yetirilir. Bu halda dövlət qeydiyyat nişanları və qeydiyyat şəhadətnaməsi nəqliyyat vasitəsinin dövlət qeydiyyatını aparan orqana təhvil verilir, mülkiyyətçiyə isə həmin orqan tərəfindən müvafiq formada arayış verilir.

5.5. Mülkiyyətçinin dəyişməsi ilə əlaqədar nəqliyyat vasitəsi uçotdan çıxarıldıqda, qeydiyyat şəhadətnaməsində onun getdiyi yer, yeni mülkiyyətçinin soyadı, adı, atasının adı göstərilir.

5.6. Əvvəllər xaricdən gətirilmiş nəqliyyat vasitələri özgəninkiləşdirmək məqsədi ilə yalnız mülkiyyətçisində özgəninkiləşdirməyə aid vergi və rüsumların tam ödənilməsi barədə gömrük orqanları tərəfindən verilmiş sənəd, sosial-təminat orqanları vasitəsilə alınmış əllə idarə edilən nəqliyyat vasitələri üçün isə sosial-təminat orqanlarının icazə sənədi olduqda uçotdan çıxarıla bilər.

## 6. NƏQLİYYAT VASİTƏLƏRİNİN MÜVƏQQƏTİ UÇOTA VƏ MÜVƏQQƏTİ QEYDİYYATA ALINMASI

6.1. Xarici dövlətlərdə qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublikasına 30 günədək müddətə müvəqqəti gətirilən nəqliyyat vasitələri Azərbaycan Respublikasının sərhəd məntəqəsinin yaxınlığında yerləşən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi hissələrində təxirəsalınmadan müvəqqət uçota alınır. Bu barədə həmin nəqliyyat vasitələrinin sahiblərinə 30 gün müddətinə müvafiq sənəd verilir (Əsasnaməyə 3 nömrəli əlavə).

6.2. Xarici dövlətlərdə daimi qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublikasına 30 gündən artıq müddətə müvəqqəti gətirilən nəqliyyat vasitələri onları geriyə qaytarmaq barədə sahibinin verildiyi öhdəçilik və gömrük orqanlarının verdiyi icazə sənədi əsasında, bu Əsasnamənin 1.2-ci bəndinin 1-ci hissəsində nəzərdə tutulmuş orqanda nəqliyyat vasitəsi sahibinin əcnəbilər üçün vizasında göstərilən müddətə, Azərbaycan

Respublikası vətəndaşı üçün isə bir il müddətindən artıq olmamaq şərti ilə, onun öhdəçiliyi müddətinə müvəqqəti dövlət qeydiyyatından keçirilir. Bu zaman həmin nəqliyyat vasitələrinin xarici qeydiyyat sənədləri və nişanları müvəqqəti olaraq saxlanca qəbul olunur və əvəzində onlar müvəqqəti dövlət qeydiyyat nişanları və qeydiyyat şəhadətnaməsi ilə təmin edilirlər. Respublika ərazisini tərk etdikdə xarici qeydiyyat sənədləri və nişanları nəqliyyat vasitəsi sahibinə geri qaytarılır.

6.3. Xarici dövlətlərdə qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublikasına gətirilmiş nəqliyyat vasitələrinin müvəqqəti dövlət qeydiyyatının aparılması və müvəqqəti uçota alınması üçün, onların sahibləri və ya sərəncam vermək hüququ olan digər şəxslər Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini;

2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsini (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin şəxsiyyətini təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş rüsumların və ya vergilərin~~, yaxud haqların~~ və yığımların ödənilməsi barədə sənəd;[38]

~~4) Lazım olarsa, nəqliyyat vasitəsinin idarə edilməsi hüququnu təsdiq edən sənədi;~~ [39]

5) gömrük orqanlarının müvəqqəti icazə sənədlərini.

6.4. Azərbaycan Respublikası ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi *icarə və ya digər əşya hüquqlarına dair müqavilə*, etibarnamə əsasında başqa şəxsə verildikdə, ~~on gün müddətində göstərilən sənədlər~~ bu Əsasnamənin 1.2-ci bəndinin 1-5-ci hissəsində göstərilən müvafiq orqanda 4.3-1-ci bəndində nəzərdə tutulmuş qaydada təkrar dövlət qeydiyyatından keçirilməlidir.[40]

## 7. DÖVLƏT QEYDİYYATINDAN KEÇİRİLMƏYƏN NƏQLİYYAT VASİTƏLƏRİNİN YOL HƏRƏKƏTİNƏ MÜVƏQQƏTİ BURAXILMASI

7.1. Yol hərəkətinə müvəqqəti buraxılan nəqliyyat vasitələrinin Azərbaycan Respublikası üçün nəzərdə tutulmuş hərfi seriyalardan ibarət olan "tranzit"nişanları olmalıdır.

7.2. "Tranzit" nişanları aşağıdakılara verilir:

istehsalçı müəssisədən, avtomobil təmiri zavodlarından, gömrük orqanlarından və ticarət təşkilatlarından qeydiyyat yerinə sürülüb aparılan nəqliyyat vasitələrinə;

başqa regiona getmək üçün, yaxud ticarət təşkilatlarına verilmək üçün uçotdan çıxarılan nəqliyyat vasitələrinə;

digər modelə avadanlıqla təchiz edilib yenidən yığılması məqsədi ilə texniki xidmət stansiyasına və avtomobil zavoduna aparılan nəqliyyat vasitələrinə.

7.3. "Tranzit" nişanlarının verilməsi haqqında qeydiyyat şəhadətnaməsində, yaxud nəqliyyat vasitəsinin alınmasını təsdiq edən sənədlərdə müvafiq yazılar qeyd edilir.

7.4. "Tranzit" nişanları ciddi hesabat blankları sayılır və dövlət qeydiyyat nişanlarına bərabər tutulur.

Azərbaycan Respublikası DİN Dövlət Yol Polisi istehsalçı zavodlara, nəqliyyat vasitələrinin satışı ilə məşğul olan müəssisələrə, ticarət şəbəkəsi mağazalarına və özünün struktur qeydiyyat məntəqələrinə lazımi miqdarda "tranzit" nişanları verir

7.5. Nəqliyyat vasitəsi qeydiyyata alınarkən, onun "tranzit" nişanları nəqliyyat vasitəsinin dövlət qeydiyyatını aparan orqana təhvil verilməlidir. Nəqliyyat vasitəsini sürüb komisyon mağazaya aparmaq üçün qeydiyyat orqanının mülkiyyətçiyə verdiyi "tranzit" nişanları həmin mağazalar tərəfindən götürülür və sonralar Azərbaycan Respublikası DİN DYPİ-nin qeydiyyat məntəqəsi əməkdaşlarının iştirakı ilə akt tərtib edilərək ləğv olunur.

## 8. NƏQLİYYAT VASİTƏSİNİN QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ

8.1. Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsində nəzərdə tutulmuş formada və qaydada verilir.

8.2. Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdikdə onun dublikatını almaq üçün, nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs əvvəlki şəhadətnamənin itirilməsi barədə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müraciət edir. [41]

## 9. NƏQLİYYAT VASİTƏSİNİN DÖVLƏT QEYDİYYAT NİŞANI

9.1. Nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində nəzərdə tutulmuş qaydada tərtib olunur və verilir.

9.2. "Nəqliyyat vasitələri və onların qoşqularının nömrə nişanları, tipləri və əsas ölçüləri, texniki tələblər" AZS-599-2011 Azərbaycan Respublikası Dövlət Standartına görə dövlət qeydiyyat nişanları tətbiqindən asılı olaraq aşağıdakı rənglərdə ola bilər: [42]

1) qırmızı rəngli - diplomatik və onlara bərabər sayılan digər təşkilatların və onların əməkdaşlarının nəqliyyat vasitələri üçün;

~~2) sarı rəngli - əcnəbilərin, xarici hüquqi şəxslərin və Azərbaycan-xarici ölkə birgə müəssisələrinin nəqliyyat vasitələri üçün;~~ [43]

3) göy rəngli - sərnişin daşınmasında istifadə edilən nəqliyyat vasitələri üçün;

4) qara rəngli - Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri tərəfindən xarici dövlətlərdən müvəqqəti gətirilmiş və müvəqqəti dövlət qeydiyyatına alınan nəqliyyat vasitələri üçün;

5) ağ rəngli - bu bəndin 1, ~~2,~~ 3 və 4-cü hissələrində göstərilən nəqliyyat vasitələrindən başqa qalan bütün nəqliyyat vasitələri üçün. [44]

**Qeyd.** Nəqliyyat vasitələri üçün istifadə olunan "Tranzit" nişanlarında yaşıl rəngli zolaq yerləşdirilir.

~~9.3. Dövlət qeydiyyat nişanı itirildikdə, onun sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs əvvəlki dövlət qeydiyyat nişanının itirilməsi barədə ərazi üzrə polis orqanının və şəhər (rayon) DYP xidmətinin qeydləri olan müvafiq arayışını təqdim edir.~~[45]

10. Dövlət qeydiyyat nişanlarında, qeydiyyat şəhadətnaməsində və digər təqdim edilən sənədlərdə və nəqliyyat vasitələrinin nömrəli aqreqatlarında saxtakarlıq əlamətləri aşkar edildikdə, nəqliyyat vasitələrinin mühərrik, ban və şassi nömrələri dəyişdirildikdə, aqreqat nömrələrinin və qeydiyyat məlumatlarının təqdim edilən sənədlərə uyğunsuzluğu, habelə nəqliyyat vasitələrinin və ya təqdim edilən sənədlərin axtarışda olmaları barədə məlumatlar mövcud olduqda, həmin sənədlər və nəqliyyat vasitələri saxlanılır və müvafiq yoxlamalar aparılır.

11. Bu qaydaların pozulmasına görə nəqliyyat vasitələrinin mülkiyyətçiləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

12. Nəqliyyat vasitəsinin dövlət qeydiyyatından keçirilməsi və daimi uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi və digər qeydiyyat hərəkətlərinin aparılmasına aid reyestr, jurnal və kompyüter bazası daimi, qeydiyyat hərəkətlərinin aparılması üçün əsas olan arxiv sənədləri isə beş il müddətində saxlanılır. [46]

Nəqliyyat vasitələrinin uçotunun aparılması, qeydiyyat hərəkətlərinin həyata keçirilməsi ilə bağlı kargüzarlıq işinin aparılması, qeydiyyat şəhadətnaməsinin, dövlət qeydiyyat nişanlarının və xüsusi məhsulların hazırlanması, sərfi, saxlanması, onlara nəzarət olunması və digər prosedur xarakterli işlərin həyata keçirilməsi bu Əsasnaməyə müvafiq olaraq 1.2-ci bənddə göstərilən orqanlar tərəfindən təsdiq edilmiş əlavə təlimatla tənzimlənir.

13. Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması, onun qeydiyyat üzrə daimi və ya müvəqqəti uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və ya dövlət qeydiyyat nişanının verilməsi üçün nəqliyyat vasitəsinin sahibindən bu Əsasnamə ilə nəzərdə tutulmuş sənədlərdən başqa digər sənədlər tələb etmək qadağandır.

14. Qeydiyyat məntəqəsi nəqliyyat vasitəsini qeydiyyata almaqdan imtina etdikdə, onun sahibinə imtinanın səbəbləri barədə yazılı məlumat verməlidir.

15. Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və ya dövlət qeydiyyat nişanının verilməsi üçün nəqliyyat vasitəsinin sahibindən bu Əsasnamə ilə müəyyən olunmayan sənədləri tələb edən, nəqliyyat vasitəsinin qeydiyyata alınmasında və ya qeydiyyatdan çıxarılmasında süründürməçiliyə yol verən və ya onların həllindən qanunsuz olaraq imtina edən qeydiyyat məntəqələrinin vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

16. Nəqliyyat vasitəsinin sahibi nəqliyyat vasitəsinin qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması zamanı süründürməçiliyə yol verilməsindən və yaxud onlardan imtina olunmasından inzibati qaydada *və* məhkəməyə şikayət edə bilər.[47]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 15 mart tarixli 39 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞ
**Əsasnaməyə 3 nömrəli**

ÜZ TƏRƏFİ

DYP orqanının adı
______________________________________________________________________________________
______________________________________________________________________________________

Xarici dövlətlərdə qeydiyyatdan çıxarılmış Azərbaycan Respublikasına
30 günədək müddətə müvəqqəti gətirilən nəqliyyat vasitələrinin
müvəqqəti uçot

TALONU

-------------------------------------------------------------------------------------------------
---------------------------------

ARXA TƏRƏFİ

seriyası ____________________N-si_____________

Marka, model ________________________________buraxılış ili____________________________
Nəqliyyat vasitəsinin tipi________________________ banın tipi___________________________
Dövlət qeydiyyat nişanı __________________________qeydiyyat şəhadətnaməsi______ N ____
Daimi qeydiyyat yeri ________________________________________________________________
Sahibi və ya onun nümayəndəsi:______________________________________________________
___________________________________________________________________________________
Müvəqqəti olacağı yerin ünvanı:_____________________________________________________
___________________________________________________________________________________
Ehtibarlıdır_________________________________________________________________________

________________________ __________________
(DYP orqanının adı)
(İmza)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 15 mart tarixli 39 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması**

## QAYDASI

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu qaydalar "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanına müvafiq olaraq hazırlanmışdır və Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus olan (Azərbaycan Respublikası Silahlı Qüvvələrindən ~~və digər birləşmələrdən~~ başqa) və mühərrikinin işçi həcmi 50 kub santimetr və daha çox, konstruktiv maksimal sürəti saatda 50 km-dən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələrinin, onların qoşqularının və yarımqoşqularının (bundan sonra "nəqliyyat vasitələri") özgəninkiləşdirilməsi və girov qoyulması qaydalarını müəyyən edir.[52]

1.2. Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması əqdləri Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq bağlanır.

1.3. Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması yalnız nəqliyyat vasitəsinin Azərbaycan Respublikası DİN Dövlət Yol Polisi idarəsinin qeydiyyat-imtahan hissələrində (bundan sonra "qeydiyyat məntəqələri") müayinədən keçirilməsi haqqında arayış təqdim edildikdən sonra Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq aparılır.

1.4. Nəqliyyat vasitələrinin müayinədən keçirilməsi onların axtarışda olub-olmaması faktının, məhkəmə orqanları, yaxud digər səlahiyyətli dövlət orqanları, vəzifəli şəxslər tərəfindən mövcud qanunvericilik aktlarına müvafiq olaraq cinayət, yaxud başqa qanun pozuntusu törədilməsinə görə nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsinə və girov saxlanmasına müvəqqəti məhdudiyyətlərin qoyulmasının mövcudluğunun yoxlanılması, həmçinin cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə aparılması və insan hüquqlarının təmin edilməsi məqsədilə həyata keçirilir.

### 2. NƏQLİYYAT VASİTƏSİNİN MÜAYİNƏDƏN KEÇİRİLMƏSİ HAQQINDA ARAYIŞIN VERİLMƏSİ QAYDASI

2.1. Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsində və girov qoyulmasında maraqlı olan şəxs (bundan sonra "ərizəçi") müvafiq əqd bağlamazdan əvvəl, nəqliyyat vasitəsini müayinədən keçirilməsi üçün onu ərizə ilə birlikdə qeydiyyat məntəqəsinə təqdim etməlidir. Qeydiyyat məntəqəsi ərizəni xüsusi kitabda qeydə almaqla nəqliyyat vasitəsinin qeydiyyat sənədlərini, onun mühərrik, ban və şassi nömrələrini, rəngini informasiya-axtarış bazasının məlumatları əsasında yoxlayır və yoxlamanın nəticəsi barədə nəqliyyat vasitəsini təqdim etmiş şəxsə nəqliyyat vasitəsinin müayinədən keçirilməsi haqqında arayış (bundan sonra "arayış") verir.

2.2. Ərizəçi tərəfindən bir neçə nəqliyyat vasitəsi təqdim edildikdə hər bir nəqliyyat vasitəsi üçün ayrıca arayış verilir.

2.3. Nəqliyyat vasitəsinin təqdim edilməsi texniki nazaslıq və digər səbəblər üzündən mümkün olmadıqda, qeydiyyat məntəqəsi həmin nəqliyyat vasitəsinin olduğu yer üzrə onun müayinəsini keçirdə bilər.

2.4. Nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan nəqliyyat vasitəsinə mülkiyyət hüququ xitam edilməklə və ya nəqliyyat vasitəsi başqasına verilməklə əlaqədar çıxarıldıqda, onun sahibinə və ya sərəncam vermək hüququ olan digər şəxsə bu qaydaların 2.1. bəndində nəzərdə tutulmuş müvafiq arayış verilir.

2.5. Arayış nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotda olduğu ərazi üzrə qeydiyyat məntəqəsi tərəfindən verilir. Xarici dövlətlərdə daimi qeydiyyatdan çıxarılmış və Azərbaycan Respublikasına özgəninkiləşdirilmə məqsədilə gətirilmiş nəqliyyat vasitələrinə müvafiq arayış Azərbaycan Respublikasının DİN Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən müvafiq gömrük sənədləri olduqda verilir.

2.6. Nəqliyyat vasitəsi qeydiyyat məntəqəsinin fəaliyyət göstərdiyi ərazinin hüdudları daxilində mülkiyyətçilərin istəyindən asılı olaraq qeydiyyat məntəqəsində alqı-satqı müqaviləsi əsasında təkrar qeydiyyata alındıqda, bu qaydalarda nəzərdə tutulmuş tərzdə müayinədən keçirilir və nəticəsi barədə qeydiyyat ərizəsində müvafiq qeydlər edilir.

2.7. Azərbaycan Respublikasında dövlət qeydiyyatı üzrə daimi uçotda olan və qeydiyyat məntəqəsinin fəaliyyət göstərdiyi ərazinin hüdudlarından kənarda *icarə və ya digər əşya hüquqlarına dair müqavilə* , etibarnamə əsasında müvəqqəti uçota alınmış nəqliyyat vasitələrinə müvafiq arayış Azərbaycan Respublikasının DİN DYPİ-nin Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən müvafiq yoxlamalar aparıldıqdan sonra verilə bilər.[53]

2.8. Təqdim edilən sənədlərdə və ya nəqliyyat vasitəsinin aqreqat nömrələrində saxtakarlıq əlamətləri aşkar edildikdə, nəqliyyat vasitəsinin aqreqat nömrələrinin qeydiyyat məlumatları ilə uyğunsuzluğu, habelə nəqliyyat vasitələrinin və ya təqdim edilən sənədlərin axtarışda olmaları barədə məlumatlar mövcud olduqda həmin sənədlər və nəqliyyat vasitələri saxlanılır və müvafiq yoxlamalar aparılır.

2.9. Arayışın verilməsindən aşağıdakı hallarda imtina edilir.

1) bu qaydaların 2.8. bəndində göstərilən hallar aşkar olunduqda;
2) nəqliyyat vasitəsi Azərbaycan Respublikasında dövlət qeydiyyatı üzrə müvəqqəti uçotda və ya qeydiyyatda olduqda;
3) qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

Arayışın verilməsindən imtina olunduğu halda bu barədə ərizəçiyə imtinanın əsasları göstərilməklə yazılı məlumat verilir.

2.10. Ərizəçi, arayış verilməsindən imtinaya əsas olmuş halları aradan qaldırdıqdan sonra müvafiq arayışı almaq üçün bu qaydalara uyğun olaraq qeydiyyat məntəqəsinə müraciət etmək və ya imtina barədə qərarla razılaşmadıqda məhkəməyə müraciət etmək hüququna malikdir.

### 3. NƏQLİYYAT VASİTƏSİNİN MÜAYİNƏDƏN KEÇİRİLMƏSİ HAQQINDA ARAYIŞ

3.1. Arayışda aşağıdakılar göstərilir:
1) qeydiyyat məntəqəsinin adı;
2) nəqliyyat vasitəsi sahibinin-fiziki və ya hüquqi şəxsin adı və hüquqi ünvanı;
3) nəqliyyat vasitəsinin markası, dövlət qeydiyyat nişanları, qeydiyyat şəhadətnaməsi, mühərrik, ban və şassi nömrələri, rəngi və buraxılış ili;
4) keçirilmiş müayinənin və yoxlamanın nəticəsi;
5) arayışın qüvvədə olma müddəti;
6) arayışın qeydiyyat nömrəsi və verilmə tarixi.
3.2. Arayış qeydiyyat məntəqəsinin rəhbəri tərəfindən imzalanır və möhür ilə təsdiq olunur.

## 4. NƏQLİYYAT VASİTƏSİNİN MÜAYİNƏDƏN KEÇİRİLMƏSİ HAQQINDA ARAYIŞIN MÜDDƏTİ

4.1. Arayış on gün müddətinə verilir.
4.2. Müddəti bitmiş arayış etibarsız sayılır.

## 5. NƏQLİYYAT VASİTƏSİNİN ÖZGƏNİNKİLƏŞDİRİLMƏSİ VƏ GİROV QOYULMASININ ZƏRURİ ŞƏRTLƏRİ

5.1. Nəqliyyat vasitəsinin müayinədən keçirilməsi haqqında arayış ərizəçi tərəfindən nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsini və girov qoyulmasını sənədləşdirən orqana təqdim edilir. Müvafiq əqd bağlanması barədə həmin orqan tərəfindən verilən sənəddə arayışı verən qeydiyyat məntəqəsinin adı, arayışın qeydiyyat nömrəsi və verilmə tarixi göstərilir.

## 6. MƏSULİYYƏT

6.1. Bu qaydaların pozulmasına görə məsuliyyət qüvvədə olan qanunvericiliyə uyğun ümumi qaydada müəyyən olunur.
6.2. Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulmasını həyata keçirən orqanların qərarlarından və hərəkətlərindən *(hərəkətsizliyindən)* inzibati qaydada *və* məhkəməyə şikayət oluna bilər.[54]

---

* **Qeyd:** Nəqliyyat vasitəsinin mülkiyyətçisi (mülkiyyətçinin nümayəndəsi) - nəqliyyat vasitəsinin sahibi olan fiziki, yaxud hüquqi şəxs və ya qüvvədə olan qanunvericilik aktları əsasında və hüdudunda nəqliyyat vasitəsinə malik olan, yaxud ondan istifadə edən və ya onun sərəncamçısı olan şəxsdir.
** Bundan sonra "nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar".

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 25 oktyabr 2001-ci il tarixli 168 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 10, maddə 663)**
2. 2 iyun 2003-cü il tarixli 73 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 6, maddə 342**)
3. 2 may 2006-cı il tarixli 119 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 463)**
4. 22 may 2006-cı il tarixli 129 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 472 )**
5. 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 822)**
6. 14 oktyabr 2006-cı il tarixli 224 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 10, maddə 902)**
7. 1 noyabr 2006-cı il tarixli 235 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 989)**
8. 13 fevral 2008-ci il tarixli 45 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 116)**
9. 13 fevral 2008-ci il tarixli 4 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 125)**
10. 12 avqust 2008-ci il tarixli 186 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 782)**
11. 10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 491)**
12. 20 avqust 2010-cu il tarixli **155** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 08, maddə 764)**
13. 20 may 2011-ci il tarixli **82** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 05, maddə 454)**
14. 21 fevral 2012-ci il tarixli **41** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 02, maddə 185**)
15. 11 may 2012-ci il tarixli **113** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 15 may 2012-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 486**)
16. 29 may 2013-cü il tarixli **88** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 02 iyun 2013-cü il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 05, maddə 574)**
17. 12 iyun 2013-cü il tarixli **135** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ( **“Azərbaycan” qəzeti, 21 iyun 2013-cü il, № 133; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 06, maddə 747**)
18. 2 avqust 2013-cü il tarixli **201** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ( **“Azərbaycan” qəzeti 22 avqust 2013-cü il, № 182, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 08, maddə 1001)**
19. 5 may 2014-cü il tarixli **122** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 18 may 2014-cü il, № 103; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 05, maddə 551)**
20. 20 avqust 2014-cü il tarixli **287** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 23 avqust 2014-cü il, № 181, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 8, maddə 1020**)
21. 30 dekabr 2014-cü il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 7 yanvar 2015-ci il, № 3, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1684)**
22. 30 mart 2015-ci il tarixli **94** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 19 aprel 2015-ci il, № 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 462)**
23. 3 aprel 2015-ci il tarixli **100** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 24 aprel 2015-ci il, № 86) , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 468)**
24. 20 avqust 2015-ci il tarixli **286** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 27 avqust 2015-ci il, № 185, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №8, maddə 971)**
25. 15 fevral 2016-cı il tarixli **43** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 27 fevral 2016-cı il, № 45; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 385)**
26. 15 aprel 2016-cı il tarixli **160** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 3 may 2016-cı il, № 94, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 815)**
27. 10 aprel 2017-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 12 aprel 2017-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №4, maddə 620**)
28. 30 iyun 2017-ci il tarixli **272** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 4 iyul 2017-ci il, № 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №6 , maddə 1246)**
29. 29 avqust 2017-ci il tarixli **341** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 31 avqust 2017-ci il, № 190, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1628)**
30. 8 may 2018-ci il tarixli **210** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 12 may 2018-ci il, № 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 1118)**
31. 14 sentyabr 2018-ci il tarixli **389** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 15 sentyabr 2018-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9, maddə 1917)**
32. 16 oktyabr 2018-ci il tarixli **452** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 19 oktyabr 2018-ci il, № 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 2166)**

33. 18 oktyabr 2018-ci il tarixli 461 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 21 oktyabr 2018-ci il, № 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 2175)**

34. 14 oktyabr 2020-ci il tarixli 388 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 16 oktyabr 2020-ci il, № 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 10, maddə 1276)**

35. 15 oktyabr 2020-ci il tarixli 393 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 22 oktyabr 2020-ci il, № 218, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 10, maddə 1281)**

36. 17 iyul 2021-ci il tarixli 219 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 24 iyul 2021-ci il, № 151, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 881)**

37. 15 iyul 2022-ci il tarixli 269 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 22 iyul 2022-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №7, maddə 820)**

38. 8 fevral 2024-cü il tarixli 78 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 9 fevral 2024-cü il, “Xalq” qəzeti, 11 fevral 2024-cü il, № 30)** *(Bu Qərar 2024-cü il sentyabrın 1-dən tətbiq edilir.)*

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

* Müqavilənin nüsxələrinin sayı tərəflərə lazım olan müəyyən edilir.

* Müqavilənin nüsxələrinin sayı, tərəflərə lazım olan miqdarda müəyyən edilir.

---

[1] 12 avqust 2008-ci il tarixli 186 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 782**) ilə 3-cü yarımbənddə "**ümumi istifadədə olan küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan tırtıllı mexaniki nəqliyyat vasitələrini (traktorları), kənd təsərrüfatında istifadə olunan və**" sözləri "**traktorları, həmçinin meşə və kənd təsərrüfatında istifadə edilən**" sözləri ilə əvəz edilsin;

15 fevral 2016-cı il tarixli 43 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 27 fevral 2016-cı il, № 45; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 385)** ilə 3-cü yarımbənddə “**digər**” sözü “**, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən**” sözləri ilə əvəz edilmişdir.

[2] 12 avqust 2008-ci il tarixli 186 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 782**) ilə 4-cü yarımbənddə "**nəqliyyat vasitələrini**" sözlərindən sonra "**, həmçinin bu bəndin 3) yarımbəndində göstərilən nəqliyyat vasitələri istisna olmaqla mühərrikinin işçi həcmi 50 kub/sm-dən az və konstruktiv maksimal sürəti saatda 50 kilometr və daha az olan digər mexaniki nəqliyyat vasitələrini**" sözləri əlavə edilmişdir.

15 fevral 2016-cı il tarixli 43 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 27 fevral 2016-cı il, № 45; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 385)** ilə 4-cü yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4) ümumi istifadədə olan küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan texnoloji nəqliyyat vasitələrini, həmçinin bu bəndin 3) yarımbəndində göstərilən nəqliyyat vasitələri istisna olmaqla mühərrikinin işçi həcmi 50 kub/sm-dən az və konstruktiv maksimal sürəti saatda 50 kilometr və daha az olan digər mexaniki nəqliyyat vasitələrini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində;~~

[3] 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 822)** ilə Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.2-ci bəndinin 4-cü yarımbəndində “**Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsində**” sözləri “**Fövqəladə Hallar Nazirliyində**” sözləri ilə əvəz edilmişdir.

[4] 25 oktyabr 2001-ci il tarixli 168 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 10, maddə 663)** ilə Əsasnamə»nin 1.2-ci bəndinin 5-ci yarımbəndində «**Gənclər və İdman**» sözləri «**Gənclər, İdman və Turizm**» sözləri ilə əvəz edilmişdir.

2 may 2006-cı il tarixli 119 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 463**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.2-ci bəndinin 5-ci yarımbəndində “Gənclər, İdman və Turizm” sözləri “Gənclər və İdman” sözləri ilə əvəz edilmişdir.

[5] 2 iyun 2003-cü il tarixli 73 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 6, maddə 342**) ilə 1.2-ci bəndin yeddinci abzasından "**və digər birləşmələrin**" və "**vahid**" sözləri çıxarılmışdır və 1.2-ci bəndə yeni məzmunda yeni səkkizinci abzas əlavə edilmişdir.

10 aprel 2017-ci il tarixli 133 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 12 aprel 2017-ci il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №4, maddə 620**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.2-ci bəndinin yeddinci abzasında “**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin**” sözləri “**Azərbaycan Ordusunun**” sözləri ilə əvəz edilmişdir.

[6] 13 fevral 2008-ci il tarixli 4 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 125**) ilə «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə»nin 1.3-cü bəndin birinci abzasından «**, yaxud ödənclərin**» sözləri «**yaxud haqların**» sözləri ilə əvəz edilmişdir.

10 iyun 2009-cu il tarixli **90** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 491**) ilə «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə»nin 1.3-cü bəndinin birinci abzasından «**, yaxud haqların**» sözləri çıxarılmışdır.

20 may 2011-ci il tarixli **82** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 05, maddə 454**) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.3-cü bəndində "**uçota alınması,**" sözlərindən sonra "**sahibinin mülki məsuliyyətinin icbari sığortasının təmin edilməsi,**" sözləri əlavə edilmişdir.

30 mart 2015-ci il tarixli 94 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 19 aprel 2015-ci il, № 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 462**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.3-cü bəndin birinci abzasından “**və ya vergilərin**” sözləri çıxarılmışdır.

3 aprel 2015-ci il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 24 aprel 2015-ci il, № 86), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 468**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.3-cü bəndində “**sahibinin mülki məsuliyyətinin icbari sığortasının**” sözləri “**avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortasının təmin edilməsi**” sözləri ilə əvəz edilmişdir.

8 may 2018-ci il tarixli 210 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 12 may 2018-ci il, № 106, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 1118**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.3-cü bəndinin birinci abzasına “**rüsumların**” sözündən sonra “**, yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalara görə tətbiq edilmiş inzibati cərimələrin**” sözləri əlavə edilmişdir.

17 iyul 2021-ci il tarixli 219 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 24 iyul 2021-ci il, № 151, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 881**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.3-cü bəndinin birinci abzasında, 1.9-cu bəndində, 2.6-cı bəndinin birinci abzasının birinci cümləsində və üçüncü abzasında “**və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi**” sözləri “**, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə**” sözləri ilə əvəz edilmişdir.

[7] 20 avqust 2010-cu il tarixli **155** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 08, maddə 764) ilə** Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.4-cü bəndin 3) yarımbəndində "**girov qəbul edildiyi**" sözləri "**ipoteka müqaviləsi bağlandığı**" sözləri ilə əvəz edilmişdir.

[8] 20 avqust 2010-cu il tarixli **155** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 08, maddə 764) ilə** Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.5-ci bənddə "**girov qoyulması**" sözləri "**nəqliyyat vasitəsinin ipotekası**" sözləri ilə əvəz edilmişdir.

[9] 20 avqust 2010-cu il tarixli **155** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 08, maddə 764) ilə** Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.6-cı bəndin üçüncü abzasında "**nəqliyyat vasitələrinin girov qoyulması barədə məlumatların uçotunun aparılmasını**" sözləri "**nəqliyyat vasitəsinin ipotekası haqqında müqavilənin və sonrakı ipoteka haqqında müqavilənin dövlət qeydiyyatının, habelə qanunla müəyyən edilmiş hallarda ipotekanın əlavə qeydiyyatının aparılmasını**" sözləri ilə əvəz edilmişdir.

30 iyun 2017-ci il tarixli 272 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 4 iyul 2017-ci il, № 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №6 , maddə 1246**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”nin 1.6-cı bəndinin üçüncü abzasına “**əlavə**” sözündən sonra “**dövlət**” sözü əlavə edilmişdir.

[10] 11 may 2012-ci il tarixli **113** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 15 may 2012-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 486**) ilə “Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə”də 1.6-cı bəndin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda səkkizinci abzas əlavə edilmişdir.

[11] 14 oktyabr 2020-ci il tarixli 388 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 16 oktyabr 2020-ci il, № 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 10, maddə 1276**) ilə "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.6-cı bəndin doqquzuncu abzasından **"və hesab-arayış blankları"** sözləri çıxarılmışdır.

[12] 11 may 2012-ci il tarixli **113** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 may 2012-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 486**) ilə "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"də yeni məzmunda 1.9-cu bənd əlavə edilmişdir.

29 may 2013-cü il tarixli **88** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 02 iyun 2013-cü il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 05, maddə 574**) ilə Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"də 1.9-cu bəndə "**plastik kart**" sözlərindən sonra "**, elektron ödəmə sistemləri**" sözləri əlavə edilmişdir.

30 mart 2015-ci il tarixli **94** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 aprel 2015-ci il, № 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 462**) ilə "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.9-cu bənddən "**və vergilər**" sözləri çıxarılmışdır.

